# Azərbaycan-Slovakiya əməkdaşlığı

## Avropanın enerji xəritəsini gücləndirən mühüm elementə çevrilir

**Azərbaycan-Slovakiya münasibətləri qarşılıqlı hörmət, strateji maraqlar və uzunmüddətli əməkdaşlıq üzərində qurulub. Ölkələrimiz arasında enerji, nəqliyyat, müdafiə sənayesi, rəqəmsal texnologiyalar və sənaye sahələrində geniş əməkdaşlıq potensialı mövcuddur. Qarşılıqlı etimadın və siyasi iradənin mövcudluğu isə bu tərəfdaşlığın daha da dərinləşəcəyini göstərir.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Slovakiya arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətləri ən yüksək səviyyəyə çatdırıb. Bu sənədin imzalanmasından sonra əməkdaşlıq praktiki olaraq bütün sahələr üzrə genişlənib. Enerji sahəsində əməkdaşlıq isə xüsusi əhəmiyyət kəsb edir. "Energetika Azərbaycan-Slovakiya münasibətlərinin ənənəvi və strateji istiqamətlərindən biridir. Ötən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya nəql edilib. Azərbaycanın zəngin qaz ehtiyatları ölkəmizə həm Slovakiyanın, həm də digər Avropa dövlətlərinin enerji təhlükəsizliyinə töhfə vermək imkanı yaradır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu gün Azərbaycan qazını alan ölkələrin sayı 14-ə çatıb və ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsinə yüksəlib: "Bu həcmın yarısı Avropa ölkələrinin payına düşür və Avropa İttifaqının 8 üzv dövləti Azərbaycan qazı hesabına enerji təminatını daha təhlükəsiz şəkildə qurur. Prezident İlham Əliyev Azərbaycanda təbii qaz yataqlarının genişləndirilməsi məsələsini də vurğulayıb. Yeni yataqların istismara verilməsi ilə Azərbaycanın ixrac imkanları daha da artacaq və Slovakiya da daxil olmaqla, region ölkələrinə enerji təchizatını geniş həcmdə təmin edə biləcək. Azərbaycan müdafiə sənayesi sahəsində Slovakiya ilə əməkdaşlığı geniş perspektivli və qarşılıqlı faydalı sahələrdən biri kimi qiymətləndirir. Bu əməkdaşlıq hərbi məqsədlərdən çox sənaye və texnoloji inkişafın təmin edilməsinə hədəflənib. Slovakiya texnologiyalarının Azərbaycanın maliyyə imkanları ilə birləşdirilməsi nəticəsində yeni məhsulların istehsalı həm dünya bazarlarına çıxış imkanları yaradacaq, həm də ölkəmizdə yüksək texnoloji inkişafın sürətlənməsinə xidmət edəcək".

P.Vəlieyva vurğulayıb ki, Azərbaycan xarici siyasət prioritetlərini uzun müddət əvvəl müəyyən edib və bu gün Avrasiyada mühüm bağlantı mərkəzlərindən birinə çevrilib. Son illər ölkəmizin nəqliyyat infrastrukturu, logistika şəbəkəsi və enerji layihələrinə qoyduğu sərmayələr nəticəsində Azərbaycan Orta dəhlizin ən etibarlı hissəsinə çevrilib. Şərqdən Qərbə ən təhlükəsiz və qısa yol Azərbaycan üzərindən keçir. Bu, Slovakiya ilə nəqliyyat və logistika sahəsində əməkdaşlığın inkişafı üçün geniş imkanlar açır.

Deputatın sözlərinə görə, rəqəmsal iqtisadiyyat, süni intellekt və data mərkəzlərinin yaradılması Azərbaycan-Slovakiya əməkdaşlığının yüksələn istiqamətlərindən biridir: "Azərbaycanın bu sahədə üstünlüyü iki əsas amildən qaynaqlanır. İqlim müxtəlifliyi, ölkədə ilboyu soyuq bölgələrin mövcudluğu data mərkəzlərinin səmərəli fəaliyyətinə imkan yaradır. Bu isə Slovakiya şirkətləri ilə əməkdaşlıq üçün yeni imkanlar açır".

Deputat vurğulayıb ki, genişlənən qaz ixracı, bərpaolunan enerji imkanları, data mərkəzləri üçün yaradılan şərait və nəqliyyat dəhlizlərində Azərbaycanın artan rolu iki ölkə arasında qarşıdakı illərdə daha genişmiqyaslı layihələrin reallaşmasına zəmin yaradır. Bütün bunlar göstərir ki, Azərbaycan-Slovakiya strateji əməkdaşlığı təkcə ikitərəfli münasibətləri deyil, həm də regional enerji təhlükəsizliyini və Avropanın enerji xəritəsini gücləndirən mühüm elementə çevrilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 13 dekabr (№263).- S.7.